# Qadınlara qarşı **gender zorakılığı**

**Qadınlara qarşı gender zorakılığı cinsi mənsubiyyətinə görə qadına qarşı törədilən fiziki, cinsi, psixoloji xəsarət və ya bu növ hadisələrlə hədələmək, əzab çəkdirmək, onu ictimai və ya şəxsi həyatda azadlıqdan məhrum etmək deməkdir.**



**Zorakılığa məruz qalmış qadınların hüquqi və ya tibbi yardımla təmin edilmək üçün müraciət edə biləcəkləri təşkilatlar:**

Daxili İşlər Nazirliyi:
**Tel.: 102**

Daxili İşlər Nazirliyinin
İnsan Alverinə Qarşı Mübarizə İdarəsi:
**Tel.: 152; (012) 562-21-12**

Uşaq Hüquqları Klinikası:
**Tel.: (012) 480-22-31**

Zorakılıq və cinayətin qurbanı olmuş
Uşaq və Gənclər üçün Psixo-Sosial Reabilitasiya Mərkəzi:
**Tel.: (012) 480-38-75; (012) 480-22-80**

"Ümidli Gələcək" Gənclər Təşkilatı:
**Tel.: (012) 493-21-42, (050) 349-29-48**

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi:
**Tel.: (012) 497-10-58**

**Müraciətlərin anonimliyi qorunur.**

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
UNFPA

TİBB İŞÇİLƏRİ ÜÇÜN

SN
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

# ZORAKILIĞA QARŞI İLK ADDIM YARDIM!



Səhiyyə sektoru gender zorakılığı hallarının aşkarlanmasında, qadın və qızlara tibbi xidmətin göstərilməsi və zərərçəkmişlərə kömək edəcək xidmətlərə istiqamətləndirməsində mühüm rol oynayır.

Qadın zorakılıq halı haqqında məlumat verirsə, tibb işçiləri ona **ilkin psixoloji yardım** və **tibbi müayinə** təklif etməlidirlər.

## İlkin psixoloji yardım dedikdə, aşağıdakılar nəzərdə tutulur:

» Söhbətə qadına gender zorakılığı barədə məlumat verməklə başlamaq
» Qadına daha konkret suallar verməyə çalışmaq
» Qadından zorakılıq haqqında soruşduqda onu diqqətlə dinləmək, amma danışmağa məcbur etməmək
» Qadının dediklərinin əhəmiyyətli hesab edildiyini göstərmək, qadını qınamamaq, ona qayğı göstərmək
» Qadına problemin həllində praktik kömək və dəstək göstərmək, lakin təkid etməmək
» Qadına resurslar haqqında məlumat əldə etməkdə kömək etmək, faydalı olacaq hüquqi və digər xidmətlər haqqında məlumat vermək
» Zəruri halda qadına təhlükəsizliyini təmin etməkdə kömək göstərmək
» Qadını müvafiq səlahiyyətli orqanlara yönəltmək



## Zorakılıq əlamətləri aşkarlananda tibb işçisi tam tibbi müayinə həyata keçirməlidir. Bu zaman tibb işçisi aşağıdakı ümumi prinsiplərə riayət etməlidir:

» Müayinənin xəstə üçün növbəti sarsıntı olmamasına çalışmalı, tibbi müayinənin nədən ibarət olduğunu izah etməli
» Xəstədən müayinəni qadın həkimin aparmasını istəyib-istəmədiyini soruşmalı (xüsusən cinsi zorakılıq hallarında)
» Qadından geyimini soyunmasını və xəstəxana xələtini geyinməsini xahiş etməli (bu yolla bütün zədələri görmək mümkündür)
» Qadın cinsi zorakılığa məruz qalıbsa, onun təkcə cinsiyyət orqanı və qarın nahiyəsini deyil, bütün bədənini müayinə etməli
» Qadının emosional və psixoloji əlamətlərinə diqqət yetirməli
» Müayinə zamanı qadını aparılacaq müayinə prosedurları barədə məlumatlandırmalı və onun razılığını almalı
» Qadın müayinədən bütövlükdə və ya onun ayrı-ayrı tərkib hissələrindən imtina edərsə, bu qərara hörmətlə yanaşmalı
» Müayinə zamanı istər adi nümunələri, istərsə də məhkəmə tibbi ekspertizası üçün lazım olan bütün nümunələri toplamalı
» Dərman preparatlarından analgetiklər, sedativlər və ya yuxu dərmanlarından istifadə etməli
» Qadına ilkin tibbi yardım göstərmək iqtidarında deyilsə, bunun üçün dərhal həmin müəssisənin başqa aidiyyəti mütəxəssisinə və ya digər tibb müəssisəsinə müraciət etməli